Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

ELEKTRON
HÖKUMƏT
PORTALI

(www.e-gov.az)

# "Bəzi fəaliyyət növlərinə lisenziya verilməsi"

# TƏLİMAT

Bu xidmət vasitəsilə,

- ✓ **Sellülar (mobil)**
- ✓ **"Biometrik texnologiyaların yaradılması və həmin texnologiyalara xidmət göstərilməsi "**
- ✓ **"Fərdi məlumatların informasiya ehtiyatının formalaşdırılması və informasiya sisteminin yaradılması, onlara xidmətin göstərilməsi"**

lisenziyalarını onlayn əldə etmək mümkündür.

**(www.e-gov.az)**

Xidmətdən istifadə etmək üçün aşağıdakı autentifikasıya (tanıma) vasitələrinin birindən istifadə etmək vacibdir:

- ✓ **elektron imza**
- ✓ **asan imza**

**(www.e-gov.az)**

**Qeyd:** *Autentifikasiya vasitələrini əldə etmək üçün* ***"Necə əldə etməli?"*** *düyməsinə vuraraq məlumat ala bilərsiniz.* (Şəkil 1)




(Şəkil 1)

**1.** Portala **(www.e-gov.az)** autentifikasiya vasitələrindən biri ilə daxil olduqdan sonra *"E- xidmətlər"* menyusundan **"Bütün xidmətlər"** bölməsini seçin. (Şəkil 2)




(Şəkil 2)

2. **Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi** sətrinin üzərinə vurun. (şəkil 3) Xidmətlər arasından **"Bəzi fəaliyyət növlərinə lisenziya verilməsi"** xidmətini seçin. (şəkil 4)




(şəkil 3)




(şəkil 4)

3. **"Yeni müraciət"** yaratmazdan əvvəl lisenziyanın növünü seçin. (Şəkil 5)




(Şəkil 5)

**4.** Açılan pəncərədə **xanaları** doldurun (Şəkil 6).




(Şəkil 6)

5. **Ərizəni onlayn imzalayın**, tələb olunan sənədləri yükləyin* və **"Göndər"** düyməsini vurmaqla müraciətinizi əlaqəli quruma ünvanlayın. (Şəkil 7)

| | Sənədlərin siyahısı | Əməliyyat |
|---|---|---|
| 1. | E-imza ilə imzalanmış ərizə | Ərizəni onlayn imzala(ASAN) |
| 2. | Ərizədə qeyd olunan obyektlərin hər biri üçün ərizəçinin istifadə hüququnu (mülkiyyət hüququ, icarə, istifadə və s. əsasları) təsdiq edən sənədin surəti | Yüklə |
| 3. | Lisenziya predmeti üzrə istifadə olunacaq telekommunikasiya vasitələri və qurğularına Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun verilmiş sertifikatların surəti | Yüklə |
| 4. | Lisenziya verilməsi üçün tələb olunan əlavə şərtlər üzrə sənəd | Yüklə |
| 5. | Fəaliyyət növünün həyata keçirilməsi üçün radiorabitə vasitələrindən və radiotezliklərdən istifadə olunarsa, radiorabitə vasitələrinə müvafiq radiotezliklərin ayrılmasının mümkünlüyü barədə Radiotezliklər üzrə Dövlət Komissiyasının rəyi | Yüklə |
| 6. | Xidmətin təşkili üzrə qurulacaq şəbəkənin strukturu və rabitənin təşkili barədə məlumat | Yüklə |
| 7. | Xidmətin təşkili üçün tələb olunan telekommunikasiya vasitələri və qurğularından ərizəçinin istifadə hüququnu (mülkiyyət hüququ, icarə, istifadə və s.) təsdiq edən sənədlərin surəti | Yüklə |
| 8. | Tətbiq ediləcək texnoloji standart üzrə şəbəkənin istismara verilməsi mərhələləri barədə məlumat və qeyd olunan mərhələlər üzrə işlərin başa çatdırılması barədə zəmanət | Yüklə |
| 9. | Təşkil olunacaq xidmətlərin növləri və əhatə dairəsi barədə məlumat | Yüklə |

Göndər

(Şəkil 7)

* Hər lisenziya növü üçün yüklənməsi tələb olunan sənədlər fərqlidir

6. **"Göndərilmiş müraciətlər"** bölməsində müraciətinizin statusunu görə bilərsiz. (Şəkil 8)




(Şəkil 8)

**Qeyd:** *Müraciətin sonrakı icrası ilə bağlı istifadəçinin elektron poçt ünvanına bildiriş göndərilir.*

**7.** Status **"Sənədlər qəbul edildi"** kimi göstərildikdə **"baxış"** düyməsi ilə müraciətə daxil olun (Şəkil 9)




(Şəkil 9)

8. **“Ödəniş sənədi"** düyməsini tıklamaqla rüsumun ödənilməsi üçün hesabı yükləyin (Şəkil 10).




(Şəkil 10)

**Qeyd:** Hesabı çap da edə bilərsiniz. Həmin hesaba ödəniş haqqını köçürün və qəbzi skan edin.

**9.** Dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədi (qəbzi) **"yüklə"** düyməsi vasitəsilə müraciətə əlavə edin və **"göndər"** düyməsi ilə müraciətinizi tamamlayın. (Şəkil 11) .




(Şəkil 11)

Sorğu təsdiqləndikdə nəticə haqqında istifadəçiyə elektron poçtla məlumat verilir, bu zaman sorğunun statusu **"Təsdiqləndi"** olur (Şəkil 12) .



Yeni müraciət | Göndərilmiş müraciətlər

| | Nömrə | Lisenziyanın növü | Müraciət edən | Tarix | Sənədin nömrəsi | Status | Qeyd | Şöbə |
|---|---|---|---|---|---|---|---|---|
| Baxış | 068 | Biometrik texnologiyaların yaradılması və həmin texnologiyalara xidmət göstərilməsi | Hüquqi şəxs | 7/13/2017 | AZ10111 | Təsdiqləndi | | |

(Şəkil 12)